## "Heydər Əliyev İli" çərçivəsində "Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi" mövzusunda konfrans keçirilmişdir

16 mart 2023-cü il tarixində "Heydər Əliyev İli" çərçivəsində Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi" mövzusunda konfrans keçirilmişdir. Konfrans



iştirakçıları ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, abidə önünə gül dəstələri düzərək dahi şəxsiyyətin xatirəsinə böyük hörmət və ehtiramlarını bildirmişlər. Qəbələ Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə müəssisə və təşkilatların nümayəndələrinin, ziyalıların, ağsaqqalların, elm xadimlərinin və rayon ictimaiyyətinin iştirakı ilə keçirilən konfransda ilk olaraq Azərbaycanın Dövlət Himni səslənmiş, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhadətə yüksəlmiş şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Tədbiri giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyətinin Başçısı Səbuhi Abdullayev qonaqları və konfrans iştirakçılarını salamlayaraq ümummilli lider Heydər Əliyevin Azərbaycan elminə, ziyalılarına, elm xadimlərinə verdiyi yüksək dəyərdən bəhs etmiş, ötən əsrin sonlarına doğru dövlətçiliyini bərpa edən, azadlığa qovuşan Azərbaycan xalqının milli inkişaf yolunun və ideologiyasının formalaşmasının məhz ulu öndər Heydər Əliyevin müstəqil respublikamıza rəhbərliyi dövrünə təsadüf etdiyini vurğulamışdır. Konfransda elm xadimləri və ziyalılar adından çıxış edən Lənkəran Dövlət Universitetinin rektoru, professor - Natiq İbrahimov, Xalq Qəzetinin müxbiri, Əməkdar jurnalist–İttifaq Mirzəbəyli, Alban-udi xristian icmasının sədri - Robert Mobili bütün ruhu, qanı, canı ilə özünü azərbaycanlı sayan Ümummilli Lider Heydər Əliyevin cəmiyyətin bütövləşməsi üçün azərbaycançılıq ideologiyasının, milli həmrəyliyin aparıcı amilə çevrilməsi istiqamətində mühüm işlər gördüyünü, azərbaycançılığın tarixən formalaşmış ayrı-ayrı komponentlərini vahid sistem və konsepsiya halına gətirərək onu dövlət idarəçiliyinin elmi-nəzəri əsasına çevirdiyini qeyd etmişlər. Çıxışlarda Ulu öndər Heydər Əliyev azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olduğu bildirilmişdir. Digər çıxış edənlər ümummilli lider Heydər Əliyevin Vətən və xalq qarşısında göstərdiyi böyük xidmətlərdən, təhsilə və gənclərə göstərdiyi diqqət və qayğıdan danışmışlar.

## 31 Mart-azərbaycançılara qarşı törədilən soyqırım günüdür




1918-ci ilin 30 mart - 3 aprel tarixində Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində daşnak erməni silahlı dəstələri azərbaycanlılara qarşı soyqırım aktı törədiblər. Rəsmi mənbələrə görə soyqırım nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilib, on minlərlə insan itkin düşüb. Bu faciəyə 1919 və 1920-ci illərdə martın 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən matəm günü elan edilsə də, sonradan unudulmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin 26 mart 1998-ci il tarixli sərəncamı ilə 31 mart - Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

Soyqırımda minlərlə dinc əhali milli mənsubiyyətinə görə məhv edilib, ermənilər evlərə od vuraraq insanları diri-diri yandırıblar.

Mart qırğınları zamanı ermənilər bir çox qədim binaları, ziyarətgahları, tarixi binaları məhv etmişlər.

## Heç kəs unudulmur

## Bahar doğumlu, bahar ömürlülər



**Natiq Əjdər oğlu İsmayılov** - 5 mart 1980-ci ildə rayonumuzun Bunud kəndində anadan olmuşdur. Orta təhsilə Bunud kənd məktəbində başlamış, 8-ci sinifi bitirdikdən sonra Cəmşid Naxçıvaniski adına hərbi liseydə təhsilini davam etdirmişdir. Daha sonra təhsilini Hərbi Akademiyada davam etdirmişdir. Ailəli idi, 4 övladı var.

Natiq İsmayılov leytenant rütbəsi ilə işə başlamış, Naxçıvanda, Qusarda, Murovdağda "N" saylı hərbi hissədə xidmətdə olmuşdur.

O, 1-6 aprel 2016-cı ildə baş verən aprel döyüşlərində vuruşmuş, 2020-ci ildə ehtiyata buraxılmışdır.

2020-ci ilin 27 sentiyabrında başlanan Vətən Müharibəsində Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 17-də şəhadətə qovuşmuşdur. Natiq İsmayılov Bunud kəndində dəfn olunmuşdur.



**İsmayıl Yaşar oğlu Qurbanov** - 6 mart 2001-ci ildə rayonumuzun Böyük Pirəli kəndində anadan olmuşdur. Orta təhsilini kənd məktəbində almış, təhsilini Qəbələ Peşə Təhsili Məktəbində davam etdirmişdir. 2019-cu ildə həqiqi hərbi xidmətə çağırılmışdır. 2020-ci ilin sentyabrında başlanan Vətən Müharibəsində Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmiş, 27 sentyabrda şəhid olmuşdur.

Qəbələ rayon Soltannuxa kəndində dəfn olunmuşdur.



**Aqşin Elman oğlu Qədirzadə**-10 mart 1999-cu ildə Qəbələ rayonunun Seyidqışlaq kəndində dünyaya göz açmışdır. Doğulduğu kəndin orta məktəbində 8 il oxuduqdan sonra Qəbələ Peşə Təhsili Məktəbində təhsilini davam etdirmişdir. 2017-2018-ci illərdə Ədliyyə Nazirliyində müddətli həqiqi hərbi xidmət keçmişdir. Hərbi xidməti başa vurduqdan sonra yenidən ordu sıralarında xidmət etmək üçün 15 may 2019-cu ildə kursa başlamış. 12 iyulda kursu moto-atıcı manqa komandiri vəzifəsi ilə bitirmişdir. Tovuz döyüşləri zamanı döyüşlərdə iştirak etmişdir.

Vətən Müharibəsi (2020 sentyabr) zamanı Murovdağ döyüşlərində iştirak edib, oktyabrın 4-də itkin düşmüşdür. Oktyabrın 18-də şəhid xəbəri verilmişdir.

Aqşin Qədirzadənin nəşi tapılmış və dekabrın 18-də doğulduğu kənddə dəfn olunmuşdur.

**Şəhla XƏLİLOVA.**

## Azərbaycan Dəmir Yolları start verir

Məlumat üçün bildiririk ki, "Azərbaycan Dəmir Yolları" (ADY) Qapalı Səhmdar Cəmiyyəti mart ayının 18-dən etibarən Bakı-Qəbələ-Bakı marşrutu üzrə sərnişin daşımalarını həyata keçirəcək. Müvafiq marşrut üzrə biletlər 4 mart tarixindən etibarən satışa çıxarılacaq.

Bu münasibətlə 4 mart tarixində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan İnvestisiya Holdinqi və ADY rəsmiləri, Dövlət Turizm Agentliyi, media nümayəndələri, nəqliyyat üzrə ekspertlər və səyahət blogerlərinin iştirakı ilə Bakı-Qəbələ qatarının rəmzi səfəri təşkil olunub. Qonaqlara yeni dəmir yolu xətti ilə paytaxtdan Qəbələyə və qonşu rayonlara qısa zaman kəsiyində rahat və təhlükəsiz şəkildə səfər etmək imkanı, eləcə də Qəbələ Dəmiryol Vağzalında yaradılmış müasir şərait və xidmətlərlə bağlı ətraflı məlumat verilib.

Xatırladaq ki, Qəbələ Dəmiryol Vağzalı və Ləki stansiyası-Qəbələ birxətli dəmir yolunun açılışı ölkə başçısı Prezident İlham Əliyev və




Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə 2021-ci ilin may ayının 15-də baş tutub.

Qeyd edək ki, 309 km uzunluğunda olan Bakı-Qəbələ-Bakı marşrutu üzrə İsveçrənin "Stadler Rail Group" şirkətinin istehsalı olan dördvaqonlu, ikimərtəbəli sürətli sərnişin qatarı hərəkət edəcək. Qatarda standart (294), biznes (61) və birinci sinif (9) olmaqla ümumi 364 yer var.

Hərəkət cədvəlinə gəlincə qatar həftə sonları olmaqla hər şənbə günü saat 08:00-da Bakıdan Qəbələyə yola düşərək saat 11:20-də mənzilbaşına çatacaq. Qəbələ-Bakı marşrutu üzrə isə qatar hər bazar günü saat 19:00-da yola düşəcək və Bakı Dəmiryol Vağzalına saat 22:20-də çatacaq.

Marşrut üzrə bir istiqamətə gediş haqqı standart sinif üçün 14 AZN, biznes sinfi üçün 31 AZN, birinci sinif üçün isə 93 AZN təşkil edir. Biletləri Bakı Dəmiryol Vağzalının kassalarından və ya ADY-nin rəsmi saytından (<https://ticket.ady.az/ticket-search>) onlayn əldə etmək mümkündür.

Qeyd edək ki, Qəbələ Dəmiryol Vağzalının ümumi sahəsi 2300 kvadrat metr olmaqla VİP zalı, gözləmə zalı, 2 sərnişin platforması, 200 yerlik parklama sahəsi, kassa otağı, tibb məntəqəsi, qatar heyəti üçün istirahət otağı, kafe, ana və uşaq otağını özündə birləşdirir.

Vağzalda təşkil olunmuş tədbirdə çıxış edən ADY sədri Rövşən Rüstəmov bildirib ki, Qəbələyə ilk dəfə olaraq dəmir yolu xəttinin çəkilməsi müasir Azərbaycan tarixində olduqca önəmli hadisədir: ''Cənab Prezident İlham Əliyevin nəqliyyat sektorunun inkişafı ilə bağlı müəyyən etdiyi strateji hədəflərə çatmaq üçün ADY dəmir yolu infrastrukturunun müasirləşdirilməsi və beynəlxalq standartlara çatdırılması istiqamətində ciddi iş aparır. O cümlədən, sərnişin daşıma xidmətinin təkmilləşdirilməsi üçün bu ilin sonunda Bakıya çatdırılması planlaşdırılan yeni elektrik qatarları ilə daha geniş miqyasda xidmət göstərə biləcəyik''.

Tədbirdə iştirak edən Qəbələ Rayonu İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev bildirib ki, şəhərə dəmir yolu xəttinin çəkilməsi və istismara verilməsi Qəbələ ilə yanaşı ərtaf rayonların əhalisi üçün də böyük önəm daşıyır: ''Regionun turizm potensialının daha da inkişaf etdirilməsi istiqamətində yeni dəmir yolu xəttinin yaratdığı imkanlar olduqca böyükdür''.

**"Qəbələ"**